# Tar ifaçılığında ustad sənətkar



**Çingiz ABDULLLAYEV,**
**Professor Alman-Azərbaycan Cəmiyyətinin sədri**

Azərbaycanda tar alətinin klassik musiqilərə inteqrasiyasının səbəbkarı professor Ramiz Quliyev sənət məktəbinə görə digər ustadlardan fərqlənir. Onun yaratdığı tar ifaçılıq məktəbində milli musiqi ilə klassik simfonik musiqinin vəhdəti heyranedicidir. Ramiz müəllimin tələbələri uzaq Şərqdən uzaq Qərbə qədər coğrafiyanı əhatə edir. Tələbələrinə ötürdüyü sənətin inciləri milli ruhda olduğu üçün mizrabın simlər arası sürətinə bənzər məsafəni qısa yolla qət edir. Əsasən də bu taktika əcnəbi tələbələrin düşüncə tərzinə uyğunlaşaraq rahatlıqla qavranır. İfa zamanı ustadın əlindəki tarın qüdrəti, harayı Qarabağa elə səs salır ki, nankor qonşuların qorxu və həyəcanına səbəb olur. Onun məlahətli ifası simlərdən çıxan qığılcımlar sanki döyüş bölgəsinin əsgərlərini ruhlandırır.

Qarabağ təbiətini əsərlərində və ifasında sintez edən ustad sənətkar doğma hisslərini cilovlamağa çalışsa da, nazik mizraba güc verərək fəryad qoparmaqla təsəlli tapır.

Bakı Musiqi Akademiyasının önündə ucaldılmış dahi Üzeyir Hacıbəylinin heykəli önündən keçərək növbəti iş gününə başlaması bir qədər də cavabdehliyini artırır. Məhz həmin vətənpərvərlik və peşəkarlıq ruhu Ramiz Quliyevin tələbkar pedaqoq kimi ad qazanmasına və tələbələri ilə qürur hissi keçirilməsinə sənətin gələcək nəsillərə ərmağan etməsinə əsas verir.

1994-cü ilin soyuq qış ayında Almaniyanın Köln şəhərində ustadın təqdim etdiyi ifa sonralar silsilə konsertlərlə müşayiət olunub.

2015-ci ildə Alman-Azərbaycan Cəmiyyətinin yubiley tədbirində Xalq artisti Ramiz Quliyevə Cəmiyyətin "Dostluq" medalının məhz Xalq yazıçısı Anar müəllim tərəfindən təqdim olunması xüsusi hörmət əlaməti idi.

Əlbəttə, Ramiz Quliyev haqqında müxtəlif çalarlarda yazılan məqalələrdən diqqət çəkəni, tanınmış jurnalist Rafiq Hacıyevin qələmə aldığı sətirlər göydə uçan durnaların səliqəli sıralanmasına və mehribanlığına bənzəyir.

**525- ci qəzet.- 2022- ci il.- 29 aprel.- S. 11.**